*Azərbaycanın gəncləri, gənc nəsli, milli ordusu, bu orduda xidmət edən gənclər ölkəmizin bu günü və gələcəyi haqqında daim düşünməlidirlər, xalqımıza, Vətənimizə, millətimizə sədaqətlə xidmət etməlidirlər. Mən əminəm ki, belə də olacaqdır.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 fevral 2017-ci il № 8 (2125) Qiyməti 25 qəpik


*2 Fevral Gənclər Günüdür*

# Silahlı Qüvvələrimizdə Azərbaycanın ən vətənpərvər gəncləri xidmət edirlər



*Azərbaycan gəncliyini haqlı olaraq xalqın gələcəyi hesab edirlər. Ümummilli lider Heydər Əliyev həmişə gənclərimizin fəaliyyətini yüksək qiymətləndirərək qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir.*

Özünəməxsus qaynarlığı, maksimalizmi, təşəbbüskarlığı ilə diqqəti cəlb edən yeni nəslin nümayəndələri taleyüklü məsələlərdə həmişə fəallıq nümayiş etdiriblər. Bütün xalqların keçmişində bu belə olub, bizdə də belədir. Azərbaycan müstəqillik qazandığı dövrdə isə gəncliyimiz hərəkətverici qüvvə olduğunu daha dərindən sübuta yetirib.

Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın gələcəyi hesab edilən gəncliyə və onun inkişaf etməsinə, cəmiyyətdə öz yerini tutmasına diqqət və qayğı göstərib. Hələ Sovet vaxtında uzaqgörənliklə ölkəmizin gələcəyi naminə gənclərin həyatda öz yerini tutması, müasir biliklərə yiyələnməsi və vətənpərvər ruhda tərbiyə alması üçün əlindən gələni əsirgəməyib. Ulu Öndər azərbaycanlı gəncləri keçmiş SSRİ-nin ən yaxşı təhsil müəssisələrinə oxumağa göndərərək onlara xeyir-dua arzulayırdı. Xalqımızın Ümummilli Lideri hələ o illərdə azərbaycanlıların hərbi peşələrə yönləndirilməsinə çalışır, bu sahədə böyük işlər görürdü. O zaman respublika rəhbərinin atdığı addımların nə qədər əhəmiyyətli olduğunu müstəqillik illərində anladıq.

1998-ci il fevralın 2-də Heydər Əliyev Azərbaycan Gəncləri Gününün ilk ildönümü münasibətilə keçirilən bədii-idman bayramında çıxış edib və gənclərə müraciətlə bildirib: "Mən sizi gördükcə daha da ruhlanıram, siz mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycanın Prezidenti sizin - gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin yaxşı yaşaması, təhsil alması üçün, yaxşı əmək fəaliyyəti göstərməsi üçün bundan sonra da əlimizdən gələni edəcəyik."

Böyük Öndərin gənclər siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyilə gənc nəslin öz bilik və bacarığını, təbii potensialını gerçəkləşdirməsi, cəmiyyətdə layiqli yer tutması üçün tədbirlər həyata keçirilir. Bu gün Azərbaycan gəncləri həyat və fəaliyyətimizin bütün sahələrində təmsil olunur, imkanlarını reallaşdırır və cəmiyyətin inkişafına öz töhfələrini verirlər.


**(Ardı 2-ci səhifədə)**




"Fəxr edirik ki, Azərbaycan əsgəriyik"


3-cü səhifədə




"Əsgərlərə yaxşı baxın ki, onlar daha da möhkəm olsunlar"


4-cü səhifədə




"Zabit şərəfini uca tuturuq"


5-ci səhifədə




Peşəkarlıq hər sahədə vacibdir


7-ci səhifədə

# Milli-mənəvi dəyərlərimizi yaşatmaq hər birimizin borcudur

*Xalq öz milli ruhunu, mənəvi dəyərlərini, əxlaqi keyfiyyətlərini qoruyub yaşadanda, inkişaf etdirib gələcək nəsillərə çatdıranda böyük və qüdrətli olur.*



Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində Müdafiə Nazirliyi və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə tədbir keçirildi. Tədbirdə sözügedən qurumların nümayəndələri, millət vəkilləri, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin zabitləri, müəllim və kursantları iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Emin Səfərov ümummilli lider Heydər Əliyevin "Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz... Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir" kəlamı ilə açaraq bildirdi ki, milli dəyərlərimizin qorunması və inkişafı Ulu Öndərin adı ilə bağlıdır. "Hələ ötən əsrin 70-ci illərində Ümummilli Liderimiz milli-mənəvi dəyərlərimizə xüsusi diqqət yetirirdi. Hazırda bu siyasət Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir."

O qeyd etdi ki, qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı hər zaman milli dəyərlərinə sadiq qalaraq bu dəyərləri yaşadıb və inkişaf etdirib. "Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki milli dəyərlərimiz həm xalqın milli mənlik hissinin güclənməsində, həm də dövlətçiliyimizin möhkəmləndirilməsində böyük əhəmiyyət kəsb edir..."

Millət vəkili Məlahət İbrahimqızı çıxışında bildirdi ki, milli dəyərlərimiz daim qorunmalı, yaşadılmalıdır. "Çünki milli dəyərlər bizim varlığımızın əsasıdır. Azərbaycan xalqı bu günədək məhz milli-mənəvi dəyərlərinə sadiqliyi sayəsində qədimliyini, milli özünəməxsusluğunu qoruyub saxlaya bilib. Aprel döyüşlərində biz bir daha bunun şahidi olduq. O çətin anlarda bir nəfər də olsun öz doğma torpağından, evindən çıxmadı. Vətəndaşlarımız yaşından asılı olmayaraq aidiyyəti qurumlara müraciət edərək ön cəbhəyə axın etdi. Baxın, budur, mənəvi dəyər... Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında, fəaliyyətində formalaşıb. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Cocuq Mərcanlıda infrastrukturun yenilənməsi və əhalinin doğma yurd-yuvalarına köçürülməsi ilə bağlı sərəncam imzaladı. Bu, torpaqlarımıza böyük qayıdışın bünövrəsini yaratmaqla xalqın milli şüuruna əsaslı təkan oldu. Bir xalqı yaşadan və onun kimliyini sübut edən torpağımız, dilimiz, adət-ənənələrimizdir. Gərək bir xalq olaraq, keçmişimizi layiqincə yaşadaq və tarixi irsimizi daha da inkişaf etdirək."

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva hər iki qurumun dəstəyi ilə hərbi hissələrdə, xüsusi təyinatlı təhsil müəssisələrində xalqımıza xas milli-mənəvi dəyərlərin təbliği, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində silsilə tədbirlərin keçirilməsini əhəmiyyətli hesab edərək bildirdi ki, hər bir xalqın milli dəyərləri onun özünütəsdiq imkanıdır. "Malik olduğumuz milli dəyərlərin kökündə, ilk növbədə, Vətənə qırılmaz tellərlə bağlılıq, yüksək milli-mədəni irs və adət-ənənələr dayanır. Azərbaycan xalqı daim öz milli dəyərlərinə sadiq olmuşdur. Hətta tarixin müəyyən dövrlərində, müstəqilliyimizin mövcud olmadığı zamanda belə xalqımız milli dəyərlərini unutmamışdır. Bu gün dünyada baş verən hadisələr bizim milli-mənəvi dəyərlərimizə daha çox diqqət etməyimizi göstərir. Müasir dövrdə gənclərimizin xalqımızın tarixinə, mədəni irsinə, adət-ənənələrinə bağlılığı ilə fəxr edirik."

- Mənəvi dəyərlərimizin əsasında vətənpərvərlik dayanır, - deyən AMEA-nın Fəlsəfə İnstitutunun əməkdaşı Rəna Mirzəzadə qeyd etdi ki, vətənpərvərlik ailədən başlayır. - Bizim üstünlüyümüz ondan ibarətdir ki, gənc müstəqil dövlətimiz möhkəm təməl, çoxəsrlik tarixi-mədəni irsimiz üzərində qurulub. Milli-mənəvi dəyərlərimizi yaşatmaq Azərbaycanın böyük gələcəyi naminə məsuliyyət hiss edən hər bir vətəndaşımız üçün ən vacib məsələdir.

Komitənin əməkdaşı Zülfiyyə Sadıqova, polkovnik-leytenant Mikayıl Hüseynov, ehtiyatda olan zabir Tərlan Seyfullayev və başqaları tədbirdə çıxış edərək fikir və mülahizələrini bölüşdülər.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**



# Silahlı Qüvvələrimizdə Azərbaycanın ən vətənpərvər gəncləri xidmət edirlər

**(Əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyevin 2007-ci ilin "Gənclər ili" elan edilməsi ilə bağlı sərəncamı gənclərin ölkə həyatındakı fəallığını daha da artırıb. Azərbaycanda uğurla həyata keçirilən dövlət gənclər siyasəti nəticəsində müasir gənclər hərəkatının inkişafı üçün kifayət qədər işlər görülüb, uşaq və gənclərin məqsədyönlü fəaliyyətləri üçün sağlam mühit yaradılıb və hüquqi baza təkmilləşdirilib.

Gənclər siyasətinin uğurla aparılması ordu gənclərinə də fəallıq, təşəbbüskarlıq bacarığı aşılayır, onlarda azərbaycançılıq, vətənpərvərlik hisslərinin formalaşmasında mühüm rol oynayır. Bu gün gənclik dedikdə ölkəmizin təhsil ocaqlarında elmi biliklərə yiyələnən tələbələrimizi, ədəbiyyat və incəsənət sahəsində fəaliyyət göstərərək mədəniyyətimizi daha da yüksəldən sənət adamlarını, dövlət orqanlarında və istehsalatda ölkəmizin inkişafına öz töhfəsini verən oğlan və qızlarımızı, dünyanın böyük idman salonlarında üçrəngli bayrağımızı ucaldaraq himnimizi səsləndirən pəhləvan və atletlərimizi nəzərdə tuturuq. Eyni zamanda gənclərimizin böyük bir hissəsi ən çətin və məsuliyyətli bir işi çiyinlərinə götürərək, taleyini birdəfəlik Silahlı Qüvvələrimizlə bağlayıb, Vətənimizin müdafiəsində dayanmağı özlərinə peşə seçiblər. Bu gün ordumuzun qazandığı nailiyyətlər ilk növbədə gənclərimizin şərəfli və məsuliyyətli fəaliyyətilə bilavasitə bağlıdır.

Aprel döyüşləri zamanı Azərbaycan əsgəri göstərdi ki, havadarlarının böyük dəstəyilə torpaqlarımızı işğal etmiş Ermənistan ordusunu gec-tez ərazilərimizdən qovacaq. Ordumuzun bölmələri düşmənin təxribatçı əməllərinə son qoymaq, cəbhəyanı kənd və qəsəbələrimizi təhlükə altında saxlayan yüksəklikləri azad etmək üçün irəli yürüdü, qısa vaxt kəsiyində düşmənin illərdir möhkəmləndiyi mövqelərdən süpürüb atdı, döyüş tapşırığını tamamilə yerinə yetirdilər.

Döyüşçülərimiz yaralansalar belə, həmin hadisələrin canlı şahidi kimi deyə bilərəm ki, döyüş meydanını tərk etmək istəmir, silahdaşlarının gücünə güc qatmaq, düşmənə qarşı son damla qanına qədər vuruşmaq, torpaqlarımızı işğaldan azad etmək əzmilə sonadək döyüşmək istəyirdilər. Həmin günlərdə Vətən oğulları qarşıya qoyulmuş döyüş tapşırığını rəşadət və fədakarlıqla yerinə yetirdilər.

2016-cı ilin noyabrında ön xətdə olarkən aprel döyüşlərinə toxunan Ali Baş Komandan bildirmişdi: "Onu da qeyd etməliyəm ki, əks-hücum əməliyyatımız əlverişsiz mövqelərdən başlamışdır. Biz yüksəklikləri, təpələri işğalçılardan azad etmişik və böyük qəhrəmanlıq göstərmişik. Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir".

Müdafiə Nazirliyinin kompleks döyüş hazırlığı tədbirləri bütün qoşun növlərində şəxsi heyətin taktiki və ixtisas bacarığının artırılmasına yönəlib. Quru qoşunlarında, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrində şəxsi heyət gündəlik məşğələlərdə, praktik dərslərdə, təlimlərdə taktiki vərdişlərə yiyələnir, qarşılıqlı əlaqələri möhkəmlədir, modern silahlardan və döyüş texnikasından istifadə etməyi mənimsəyir. Ayrı-ayrı qoşun növlərində və hərbi hissələrdə döyüş vərdişlərinin gücləndirilməsi üçün son illərdə tez-tez keçirilən irimiqyaslı təlimlər diqqəti çəkən məqamlardandır.

Təbii ki, uğurlar gərgin fəaliyyət, gündüz və gecə vaxtlarında keçirilən taktiki, ixtisas hazırlığı məşğələlərində, çöl çıxışlarında, təlimlərdə zabit, gizir və əsgərlərimizin əldə etdiyi bilik və döyüş vərdişlərində özünü büruzə verir. Zabit və əsgərlərimiz, hərbi mütəxəssislərimiz döyüş hazırlığı prosesində mənimsədikləri bacarığı təlim meydanında məharətlə ortaya qoymağı, planlaşdırılmış əməliyyatların müxtəlif mərhələlərində qarşıya qoyulan tapşırıqları uğurla icra etməyi, hava, suüstü və yerüstü hədəfləri sərrast zərbələrlə məhv etməyi bacarırlar.

Bir sözlə, ordu sıralarında Vətənə övladlıq borcunu şərəflə yerinə yetirən zabit, gizir və əsgərlər fəal həyat mövqeyilə seçilən Azərbaycan gəncliyinin ən avanqard nümayəndələri olduqlarını gündəlik xidmətlərində nümayiş etdirirlər.

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu"**

Döyüş hazırlığı

# “Fəxr edirik ki, Azərbaycan əsgəriyik”



*Hərb sənəti şərəfli olduğu qədər məsuliyyətlidir. Bu sahəni öz iradəsinə, gücünə və psixoloji hazırlığına güvənən, Vətənini canından artıq sevən, ölümün gözünə dik baxanlar seçir. Bu peşənin əsas məğzini Vətənə xidmət, amalını isə Vətən sevgisi təşkil edir. Bu peşə elə bir peşədir ki, Vətən sözü ilə yanaşı hallanır. Hərbçi, əsgər dedikdə ilk növbədə Vətən keşikçiləri gözümüzdə canlanır. Ümummilli lider Heydər Əliyev bir vaxtlar Azərbaycan gəncliyinin qarşısında dayanan vəzifələrdən söz açaraq qeyd edirdi ki, gənclərimiz ordu sıralarına qatılmaqdan fəxr duymalı, hərbçi olmağı ən şərəfli vəzifə hesab etməlidirlər. Çünki hərbçilər ikiqat məsuliyyətli insanlardır. Onlar həm mükəmməl hərbçi, həm də Vətənin müdafiəsinə, torpağa ürəkdən bağlı olmalıdırlar.*

"N" hərbi hissəsində üzərinə düşən döyüş tapşırığını məsuliyyətlə yerinə yetirən bölmələr arasında özüyeriyən minaatan batareyanın adı xüsusilə çəkilir. Ən müasir minaatanla təchiz edilmiş batareyada peşəkarlıqla yanaşı, əsgəri nizam-intizam da diqqətdədir və döyüş hazırlığı sahəsində daim uğurlar əldə edilir. Özüyeriyən minaatan batareya müharibə şəraitində düşmən qüvvələrinin məhv edilməsində müfəssəl rola malikdir. Baş leytenant Eşqin Tağıyevlə qısa söhbətdən sonra artilleriyaçıların yanına gedirik.

- Əsgərlər minaatanın sirlərinə dərindən yiyələnmək üçün praktik vərdişlərə can atırlar, - gənc zabit dedi. - Gördüyünüz kimi əsgərlərimiz çox səliqəli və isti geyimlə təmin olunublar. Müharibə şəraitində hansı vəziyyətdə olmalıdırlarsa, təlimdə də hər bir inceliyə diqqət yetirilir. Əsgərlərimizin öz vəzifələrinin öhdəsindən bacarıqla gəldiyinə, hər birinin işinə məsuliyyətlə yanaşdığına şahid olursuz. Onların əsas vəzifələri döyüş zamanı minaatanı təyinatı üzrə istifadə etmək, verilmiş əşya-əmlakın yararlılığını qoruyub saxlamaqdır. Batareyada xidmət edən hər bir zabit, gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun bir məqsədi var; şəxsi heyətə praktik vərdişləri aşılamaq, təhlükəsizlik qaydalarına əməl edilməsini diqqətə çatdırmaq.

Çavuş Elçin Tütünçiyevlə məşğələnin keçirildiyi ərazidə tanış oluruq. Təcrübəli gənc komandirin özünə inamlı olması nəzərimizdən qaçmır. Balakən rayonundan hərbi müddətli xidmətini başa vurduqdan sonra ordu sıralarını tərk etməyib. 8 ilə yaxındır ki müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətənimizin keşiyindədir. Heyət komandirinə görə, hər bir əsgər təlim zamanı məsuliyyətli olmalı, vəzifəsini dəqiqliklə yerinə yetirməlidir. Çünki hər döyüş məşğələsi bir imtahan, bir sınaqdır. Azərbaycan əsgəri bütün sınaqlardan alnıaçıq, üzüağ çıxaraq öz vəzifəsinin öhdəsindən layiqincə gəldiyini sübut etməlidir. Bütün bunlardan əlavə istənilən sahədə xidmət edən əsgərimiz dərk etməlidir ki, ani bir səhv bölmənin döyüş qabiliyyətinə təsir edə bilər.

Məşğələ keçirilən zaman əsgərlərin hərəkətlərini diqqətlə izləyib, onların vəzifələrinin öhdəsindən layiqincə gəldiklərinin şahidi oluram. Təcrübəli əsgərlər komandirlərinin hər tapşırığına diqqətlə qulaq asır, təlimdə birinci olmağa çalışırlar.

Təcrübəli zabit Eşqin Tağıyev və tabeliyində olan əsgərləri məşğələ zamanı müfəssəl praktiki vərdişlərə malik olduqlarını bir daha sübuta yetirməyə nail olurlar.

Məşğələlərdə fərqlənən əsgərlər Söhbət Əlizadə, Nicat Vəliyev, İlkin Babaşovla həmsöhbət olmaq imkanı qazanıram.

Sumqayıt şəhərindən hərbi xidmətə çağırılan Söhbət Əlizadə əsgəri xidmətin şərəfli və məsuliyyətli olduğunu qeyd etməyi özünə borc bildiyini deyir. "7-ci aydır ki, Vətənin keşiyindəyəm. Gənc əsgər kursunu bitirdikdən sonra hazırkı vəzifəmə təyin olundum. Özüyeriyən minaatan batareyanın heyət nəfəriyəm. Mütəmadi olaraq təlim-məşqlər keçərək vəzifəmizi praktik olaraq təkrarlayır, komandirlərimizdən çox vərdişləri öyrənməyə çalışırıq. Hər məşğələdə yeni vərdişlər qazanır, özümüzü həm mənəvi-psixoloji, həm fiziki, həm də döyüş hazırlığı baxımından qələbə qazanmağa hazır hiss edirik. Ali Baş Komandan əmr verdiyi gün torpaqlarımızı azad edəcəyik.



Əsgərlər İlkin Babaşov və Nicat Vəliyevin də nizam-intizamından, bacarığından komandirləri fərəhlə söz açır.

Təcrübəli əsgərlər məşğələ zamanı öz bilik və bacarıqlarını ortaya qoymağa çalışdıqlarını bildirərək, Azərbaycan əsgəri adını daşımalarından qürur duyduqlarını deyirlər. "Biz fəxr edirik ki, azərbaycanlıyıq, Azərbaycan əsgəriyik. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısını daim hiss edirik. Ən müasir silah-texnikaya, yüksək məişət şəraitinə malik olan bir ordunun sıralarındayıq. Düşmənlə davamız haqq davasıdı. Heç bir ölkənin torpağına göz dikməmişik, heç bir canlının haqsız qanını tökmək istəmirik. Yeganə məqsədimiz əzəli torpaqlarımızı yağıların tapdağından azad etməkdir."

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# Qoşunlarda yeni tədris dövrü başlanıb

*Silahlı Qüvvələrin birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil müəssisələri və idarəetmə orqanlarında yeni tədris dövrü başlayıb.*



Ordumuzun qarşısında qoyulan tapşırıqlar Ali Baş Komandanın tələblərinə, Müdafiə nazirinin əmr və sərəncamlarına uyğun olaraq quruda, dənizdə, havada real təhdid və risklərin nəzərə alınması ilə yerinə yetiriləcək.

Silahlardan plana uyğun və ardıcıl surətdə istifadə olunması ilə qoşunların idarəedilməsinin səmərəliliyinin artırılması, qarşılıqlı uzlaşmanın gücləndirilməsi, döyüş növbətçiliyinin keyfiyyətli təşkili, şəxsi heyətin döyüş qabiliyyətinin, mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi və praktiki vərdişlərinin təkmilləşdirilməsi yeni tədris dövrünün əsas məqsədlərindəndir.

Maddi-texniki bazanın gücləndirilməsi, əsaslı planlaşdırma və digər təşkilati məsələlər yeni tədris dövründə döyüş hazırlığının daha keyfiyyətli təşkilinə imkan yaradacaqdır.

Müdafiə nazirinin göstərişi ilə əsas diqqət şəxsi heyət tərəfindən müasir döyüş texnikası və silah-sursatın müxtəlif iqlim, çətin relyef şəraitində düzgün istifadə və tətbiq edilməsi bacarıqlarının daha da artırılmasına yönəldiləcəkdir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında illik tədbirlər planı imzalanıb

*Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında dini radikalizmlə mübarizənin səmərəliliyinin artırılması məqsədilə 2017-ci il üçün birgə tədbirlər planı imzalanıb. Sənədə əsasən, keçiriləcək tədbirlərin yeri, icra vaxtı, icraya məsul qurumlar və şəxslər müəyyən edilib.*

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan idarələrdə, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil ediləcək görüşlərdə Azərbaycançılıq ideyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq və digər mövzularda tədbirlər keçiriləcək.

Müxtəlif kateqoriyalardan olan hərbi qulluqçuların, tarixçilərin, elm xadimlərinin və ilahiyyatçı alimlərin iştirakı ilə "dəyirmi masa"ların təşkili də nəzərdə tutulub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Əsgərlərə yaxşı baxın ki, onlar daha da möhkəm olsunlar





Əgər əvvəlki illərdə əsgər valideynləri hərbi xidmətdə olan övladlarının qidalanması və məişəti sarıdan bir qədər narahat idisə, artıq indiki dövrdə belə narahatlığa son qoyulub. Çünki hərbi hissə və bölmələrimizdə şəxsi heyətin sosial-məişət şəraiti, əşya-ərzaq təminatı yüksək tələblər səviyyəsindədir. Cəbhə xəttində də belə şərait yaradılıb və bütün bunlar "Biz hərbçilərimizlə fəxr edirik" deyən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin orduya, hərbi qulluqçulara diqqət və qayğısının parlaq təcəssümüdür.

Cəbhə bölgəsindəki "N" hərbi hissəsi də artıq bir neçə ildir ki, müasir şəraiti ilə şəxsi heyətin ixtiyarındadır. Burada yaradılan məişət şəraiti əsgərləri daha da nümunəvi xidmət etməyə ruhlandırır. Zabit Şahin Qəhrəmanov söhbətimizdə bildirdi ki, dövlətimizin orduya olan yüksək qayğısı şəxsi heyətimizə xoş ovqat və döyüş ruhu aşılayır. "Hər kəs göstərilən qayğıdan ruhlanaraq Vətən qarşısında borcunu məsuliyyət hissi ilə yerinə yetirir. Mürəkkəb təbii şəraitdə döyüş növbətçiliyi aparan şəxsi heyətin bütün qayğıları ordu rəhbərliyinin diqqət mərkəzindədir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov, ordunun digər rəhbər heyəti hərbi hissəmizə gəlişi zamanı ön xəttə baş çəkərək əsgərlərin qayğıları ilə şəxsən maraqlanır, onlarla çay süfrəsində söhbət edir. Ordu rəhbərliyinin döyüşçülərlə sıx ünsiyyət yaratması şəxsi heyətə ruh yüksəkliyi aşılayır. Bu etimada cavab olaraq hər bir döyüşçümüz üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlir, verilən tapşırıqları məsuliyyət hissi ilə yerinə yetirir. Belə yüksək əhval-ruhiyyədə olan döyüşçülərimiz Vətənimizin işğalda olan ərazilərini düşməndən azad etmək üçün haqq savaşında öz sözlərini deyəcəklər".



Nahar fasiləsində fürsət tapıb əsgər yeməkxanasına baş çəkirik. Təlim və məşğələlərdən yenicə qayıtmış əsgərlər baş geyimlərini çıxarıb əl-üzlərini yuduqdan sonra geniş və işıqlı zala daxil olurlar. Hər kəs əlindəki podnosla xörəkləri qəbul edib masaya əyləşir. Bu zaman üzlərdə olan təbəssüm diqqətimdən yayınmır.

Artıq iki ildir ki, burada şəxsi heyət müasir əsgər yeməkxanasında yüksək keyfiyyətlə hazırlanan milli xörəklərlə qidalanır.

Əsgərlər üçün yeməkləri və salatları hazırlayan, ümumiyyətlə, burada bütün məişət işlərini bacarıqla yerinə yetirən qadınlara yaxınlaşıb onlardan qəzetimiz üçün müsahibə alıram.

Sona İbrahimovanın da taleyində el-oba nisgili var, erməni hərbi birləşmələri tərəfindən Cəbrayıl rayonu işğala məruz qalanda doğma ev-eşiyindən didərgin salınıb. Amma ümidlidir ki, aprel döyüşlərinin ardınca növbəti qələbələrimiz olacaq və o da digər soydaşlarımız kimi öz ata-baba yurduna dönəcək. "Ordumuzun aprel zəfəri məni də çox sevindirdi, doğma ocaqlarımıza qayıtmaq ümidimi artırdı. Bu günlərdə möhtərəm Prezidentimiz İlham Əliyevin işğaldan azad edilən Cocuq Mərcanlı kəndində yaşayışın təmin edilməsi ilə əlaqədar imzaladığı sərəncam bütün qaçqın soydaşlarımız kimi, məni də ürəkdən sevindirdi. Dövlətimizin başçısına güvəncimiz böyükdür, onun rəhbərliyi altında qüdrətli ordumuzun tezliklə yeni qələbələrlə bizi sevindirəcəyinə əminliyimiz daha da artıb. Əsgərlərimiz üçün bir-birindən dadlı yemək və salatlar hazırlamağı özümə müqəddəs borc bilirəm, çünki əsgər də müqəddəsdir, torpaqlarımızın keşiyini çəkir. Mən də ümidliyəm ki, əsgərlərimizin hünəri ilə doğulduğum ata-baba yurdumun tezliklə erməni tapdağından xilas olacaq və evlərimizə dönəcəyik".

Növbəti müsahibim isə aşpaz Yazgül Xudaverdiyevadır. "Dövlətimizin rəhbərliyinə, şəxsən Prezident İlham Əliyevə minnətdaram ki, ordumuzun, əsgər övladlarımızın qayğısına qalır. O bu yaxınlarda cəbhə bölgəsində əsgər yeməkxanasına baş çəkdi, aşpaz qadınlarla da görüşüb söhbət etdi və qeyd etdi ki, əsgərlərə yaxşı baxın, onları yaxşı yedirdin ki, onlar daha da möhkəm olsunlar, Vətənimizi daha da yaxşı qorusunlar. Dövlət başçısının sözləri bizi də ürəklə çalışmağa ruhlandırır".

- Mən də bir axşam televizora baxanda Prezidentimizin əsgər yeməkxanasında qadın qulluqçularla söhbətini izləyə bildim, - deyə Dilarə Hümbətova da ürək sözlərini bölüşərək əsgərlər üçün dadlı yemək hazırladıqlarını, onlara öz doğma övladları kimi xidmət etdiklərini dedi. - Bu zala daxil olan hər bir əsgəri öz balam, övladım bilirəm. Əgər onlar iştahla qidalanırsa, üzlərində təbəssüm hiss edirəmsə, mən də özümü xoşbəxt sanıram.

Səidə Əliyeva isə hazırda əsgər anasıdır, övladı ordumuzun sıralarında xidmət edir. Səidə xanım deyir ki, burada əsgərlərimiz üçün nahar hazırlayanda, öz övladımı da düşünürəm. "Sevinirəm ki, indi ona da mənim kimi analar xidmət göstərir. Prezidentimiz İlham Əliyev sağ olsun ki, ordumuzda belə yüksək şərait yaradıb".

Sonra masalara yaxınlaşıb iştahla nahar edən əsgərlərimizin fikirlərini qələmə alıram. Hamı bir nəfər kimi yeməklərin keyfiyyətindən, hər gün bişirən milli xörəklərin bir ana sevgisi ilə hazırlanmasından razılıq edir. Doğrudan da, evimizdə də belədir, bir xörəyi iştahla həzm etdikdə onun bir sevgi ilə hazırlandığına əmin oluruq...

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

### Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb

NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 41 nəfərdən ibarət qrupu plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 20 noyabr 2002-ci il tarixdən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 hərbi qulluqçusu, 2 hərbi həkimi və mühəndis-istehkam ixtisası üzrə 2 zabiti Əfqanıstandakı missiyada iştirak edir.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Hərbi qulluqçunun ölüm səbəbi araşdırılır

Yanvarın 29-da sosial şəbəkələrdə və bəzi yerli elektron informasiya resurslarında Silahlı Qüvvələrin hərbi qulluqçusu əsgər Fəttayev Xanəli Qəribəli oğlunun düşmən tərəfindən açılan atəş nəticəsində həlak olması barədə yayılan məlumatlar həqiqətə uyğun deyil.

Bildiririk ki, hərbi qulluqçu qeyri-döyüş şəraitində, özünəqəsd nəticəsində həlak olub. İlkin araşdırmalar göstərdi ki, intiharın xidməti fəaliyyətlə əlaqəsi aşkar edilməyib. Faktla bağlı Hərbi Prokurorluq tərəfindən cinayət işi başlanılıb, araşdırma aparılır.

Eyni zamanda sosial şəbəkə istifadəçilərini və elektron kütləvi informasiya vasitələrini Silahlı Qüvvələrin fəaliyyəti, xüsusilə cəbhə bölgəsində baş verən hadisələrlə bağlı dəqiqləşdirilməmiş, qeyri-rəsmi məlumatları yaymamaları barədə növbəti dəfə xəbərdar edirik.

***31 yanvar 2017-ci il.***

Ermənistan silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 8 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan və İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli və Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Cəbrayıl rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# “Zabit şərəfini uca tuturuq”

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində ehtiyat zabit hazırlıq kursu keçirilir. Kursda müxtəlif ali təhsil ocaqlarından məzun olmuş vətənpərvər gənclər təhsil alırlar. Onlar zabit kimi, öz peşə bacarıqlarını ordu sıralarında istifadə etmək arzusundadır. Bu da Azərbaycan Ordusunun cəmiyyətdə artan nüfuzunun göstəricisidir. Ümummilli liderimiz Heydər Əliyevin "bütün peşələr şərəflidir, lakin hərb peşəsi bütün peşələrdən şərəflidir" sözlərini həyat devizi kimi dərk edən gənclərimiz hərbi peşələrə yiyələnib, ordu sıralarında xidmət etməyə üstünlük verirlər. Bu da səbəbsiz deyil, son illər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu islahatlar ordumuzun hərbi qüdrətini daha da artırıb. Regionda ən güclü olan Silahlı Qüvvələrimizlə hər bir vətəndaşımız qürur duyur. Bu qürur hissini, aprel döyüşləri zamanı xalqımız dünyaya nümayiş etdirdi. Düşmənin hücumlarına məruz qalan kəndlərin sakinlərindən heç biri yurd-yuvalarını tərk etmədi. Əksinə, hərbçilərimizlə çiyin-çiyinə döyüşmək üçün müraciət etdilər.

İki mərhələdə (test və idman) keçirilən imtahanlar nəticəsində kursda iştirak etmək üçün ən layiqli namizədlər seçildi. Kursantlar müxtəlif ixtisaslar üzrə qruplara bölündü. Bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini, motoatıcı taqım komandiri, artilleriya, RAS xidməti, hüquqşünas, hərbi həkim, ərzaq xidməti və s. ixtisaslar üzrə dərslər təşkil olundu. Kursantlara Təlim və Tədris Mərkəzinin peşəkar müəllimləri tərəfindən döyüş hazırlığı, taktiki hazırlıq, atəş hazırlığı, hərbi topoqrafiya, mühəndis hazırlığı, Silahlı Qüvvələrdə tərbiyə işinin təşkili, hərbi psixologiya və pedaqogika və s. dərslər tədris olunur.

Mən də gələcəyin zabiti olmaq həvəsi ilə yaşayan gənclər arasındayam. Bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini ixtisası üzrə təhsil alıram. Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənov şəxsi heyətin mənəvi-psixoloji hazırlığını daim diqqət mərkəzində saxlayır və bu sahəyə cavabdeh zabitlər qarşısında ciddi tələblər qoyur. Elə buna görə də onlarla gənc bu peşənin vacibliyini dərk edərək keçirilən dərslərə dərin məsuliyyətlə yanaşır.

Yaxşı başa düşürük ki, ən müasir silahı belə idarə edən insandır. Buna görə də hərbi bölmələrdə şəxsi heyət yüksək mənəvi dəyərlər ruhunda tərbiyə olunur. Şəxsi heyətin mənəvi hazırlığı sahəsində çalışacaq gənc zabitlər də əsgərlərə yüksək döyüş əhval-ruhiyyəsi aşılamalı, onlara xalqımızın tarixi irsini, düşmənlərimizin törətdikləri faciələri təbliğ etməlidirlər. Gənclərə yüksək döyüş ruhu aşılamaq üçün ilk öncə özümüz şəxsi nümunə olmalıyıq. Buna görə də dərslərimizdə fəal iştirak edir, təcrübəli müəllimlərimiz tərəfindən öyrədilən biliklərə yiyələnməyə can atırıq.

Seçdikləri ixtisasın məsuliyyətini, vacibliyini və əhəmiyyətini yaxşı dərk edən kursantlar, gələcəkdə tərbiyə işi üzrə peşəkar zabit kimi yetişmək üçün bütün biliklərini səfərbər edirlər. Gündəlik tədris proqramına uyğun olaraq keçirilən dərslərdə diqqətli olur, müəllimlərimizin tədris etdiyi fənləri mənimsəməyə səy göstəririk. Asudə vaxtlarımızda isə kitabxanadan əldə etdiyimiz dərs vəsaitlərindən istifadə edərək biliklərimizi daha da artırırıq.

Kursant yoldaşlarımla söhbətim zamanı hərb peşəsinə rəğbət bəslədiklərinin şahidi oluram. Onların hər biri keçirdikləri həyəcan və sevinc hisslərini bölüşür. Onlara bu şansı yaratdığı üçün Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin minnətdarlıq bildirən gənclər bilikli və bacarıqlı zabit kimi yetişib ordumuzun gücünə güc qatmağın arzusundadırlar.

Kursant yoldaşlarımdan Araz Vəliyev zabit ailəsində böyüyüb. Böyük qardaşı ön xətdə yerləşən "N" hərbi hissəsində bölük komandiri vəzifəsində xidmət edir. Araz Sumqayıt Dövlət Universitetinin tarix fakültəsinin məzunudur. Əsgəri xidmətini ucqar dağ zirvələrində, qarla örtülü səngərlərdə layiqincə yerinə yetirib. O fikirlərini bölüşərək deyir:

- Uşaqlıqdan qardaşımın formasını geyməyə can atırdım. O, hər dəfə evə gələndə onu əsgəri salamla qarşılayar, "komandir, xoş gəlmisən" deyərdim. Həmişə düşünərdim ki, "mən də böyüyəndə qardaşım kimi zabit olacam." Və artıq arzuma çatmağıma az qalıb. Gələcəkdə bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini kimi əsgərlərimizə xalqımızın şanlı tarixi, adət-ənənələri haqqında geniş məlumat verəcəm. Torpaqlarımız uğrunda döyüş meydanlarında mərdlik və şücaət göstərərək canlarını qurban verən qəhrəmanlarımızdan söz açıb onlara döyüş ruhu aşılayacam. Qoy əsgərlərimizin hər biri bilsin ki, bizlər Mübarizlərin, Fəridlərin, Samidlərin və s. qəhrəman oğulların davamçılarıyıq.

Növbəti həmsöhbətim Azərbaycan dili və ədəbiyyatı fakültəsinin məzunu kursant Toğrul Bəylərovdur. O, Naxçıvan Muxtar Respublikasında hərbi xidmət keçib. Aprel döyüşlərindəki qələbəmizdən ruhlanan Toğrul da zabit olmağa qərar verib.

- Aprel döyüşləri ordumuzun gücünü sübut etdi. Həmin günlərdə həmyaşıdlarımla yığışıb ön xətdəki bölmələrimizə getdik. Orada zabit, gizir, əsgər heyətində elə döyüş ruhu var idi ki, onların qarşısında heç bir qüvvə tab gətirə bilməzdi. Mən də döyüşçülərimizlə bir sırada olmağı arzuladım və o gün qərar verdim ki, hərbçi olmaq üçün Müdafiə Nazirliyinə müraciət edəcəm. Artıq bir aydan çoxdur ki, kursdayam. Kursu uğurla başa vurub təyin olunduğum bölmədə öhdəmə düşən vəzifələri layiqincə yerinə yetirəcək, şəxsi heyəti mənəvi dəyərlər ruhunda tərbiyə etmək üçün bilik və bacarıqlarımı əsirgəməyəcəm.

Növbəti həmsöhbətim əvvəllər ordu sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuş Ceyhun Əliyevdir. O, Gəncə Müəllimlər Universitetinin məzunudur. Ceyhun cəbhə bölgəsində yerləşən bölmədə manqa komandiri vəzifəsində xidmət edib. Xidmətinin son 3 ilini isə "N" hərbi hissəsinin 3 min metrdən çox yüksəklikdəki bölməsində xidmət edib. 1 oğul atası olan kursant Əliyev, gələcəkdə oğlunun da bu şərəfli peşəyə yiyələnməsini arzu edir.

- Ehtiyat zabit hazırlığı kursunun təşkil olunacağını eşitdikdə mən də çox sevindim, - Ceyhun dedi. - Zabit olmaq çoxdankı arzum idi. Hərbi xidmətdə 7 illik təcrübəmə də güvənərək bu sahədə uğur qazanacağıma inanıram. Yaxşı bilirəm ki, əsgərlərin mənəvi-psixoloji durumu nə qədər yüksək olsa, döyüş qabiliyyətləri də bir o qədər güclü olar. Təyin olunacağım bölmədə şəxsi heyətə Vətənə sədaqət hissləri aşılamaq üçün mən də var qüvvəmi səfərbər edəcəm.

Ali Baş Komandanın döyüş əmrinə hər an hazır olan, ürəyi Vətən sevgisi ilə döyünən, torpaqlarımızın azadlığı uğrunda canını əsirgəməyən döyüşçülər olacağımıza söz vermişik. Əsas amalımız Azərbaycan zabitinin şərəfini uca tutmaqdır.

**Mahmud MÖHBALIYEV,**
**foto çavuş**
**Namiq PƏNAHOVUNDUR**



# Ermənistanda məsuliyyətsiz və populist çıxışların səbəbi daxili sosial-ictimai gərginlikdir

*Yanvarın 26-da "Erkir media" erməni telekanalının efirində çıxış edən Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Movses Akopyan məsuliyyətsiz və populist açıqlamasında deyirdi: "Cəbhədə gərginliyin azalmasına səbəb, erməni hərbçilərinin iradəsi nəticəsində baş verir". Əslində, Ermənistan tərəfi təxribatlar törətmədiyi təqdirdə Azərbaycan cəbhədə vəziyyətin gərginləşməsi üçün heç vaxt fəaliyyət həyata keçirmir. Biz düşmən təxribatlarının qarşısını qətiyyətlə alırıq. Onun dediyindən fərqli olaraq müharibənin yenidən başlamaması da Azərbaycanın dövlət rəhbərliyinin qətiyyəti və iradəsi sayəsindədir. Biz hələ də dünya ictimaiyyətinin xalqımızın haqq işinə ədalətlə yanaşacağına və münaqişənin sülh yolu ilə həllinin mümkünlüyünə ümidimizi itirməmişik.*

İşğalçı ordunun baş qərargah rəisinin "bu gün düşmənin hər hansı istiqamətdə uğur əldə etməsi çətindir" deməsi də zəifliyini, gücsüzlüyünü pərdələməkdir. Çünki cəbhədə uğur qazanmağın "çətinliyini" ordumuz aprel döyüşlərində bir neçə gündə və yetərincə sübut edərək, erməni ordusu, eləcə də qondarma rejim haqqında yaradılan mifi darmadağın etdi.

2016-cı ildə guya aldıqları yeni silahlardan ağızdolusu danışan Akopyan jurnalistlərə Azərbaycan hərbi texnikasının yerindəcə, hətta 15 metr dəqiqliklə məhv ediləcəyini bəyan edir. Bu, çox ucuz blefdir.

Birincisi onu qeyd etmək lazımdır ki, onların hansı silahlara malik olmaları barədə Azərbaycan tam məlumatlıdır. Eyni zamanda bütün bunların Azərbaycanın silah arsenalı ilə müqayisədə çox cüzi olduğunu hər kəs, həmçinin Ermənistanın hərbi rəhbərliyi də yaxşı bilir. Silahlı Qüvvələrimizin istifadəsində olan silahlar işğalçı ordunun hərbi obyektlərinə zərbələr endirmək, döyüş texnikasını məhv etmək gücündədir.

Aprel döyüşlərindən sonra erməni ekspertlər, deputatlar, əsgər valideynləri, hətta erməni hərbçiləri tərəfindən məğlub olmalarının səbəbinin erməni ordusunda mövcud olan ruh düşkünlüyü, komandanlığın bacarıqsızlığı, silah və texnikanın nasaz, yanacaqsız, sursatsız, bərbad vəziyyətdə olduğu barədə mətbuatda, sosial şəbəkələrdə dəfələrlə yazıldığını da M.Akopyan çox tez "unudub". Aprel hadisələrindən sonra qorxaraq yaxın "silahdaşı" Sarkisyan tərəfindən Yerevana "dəyişdirilən" Movses Akopyanın güc-bəla ilə ətrafındakıların əlindən canını qurtardığını da Ermənistanda hamı çox gözəl başa düşür. Lakin kriminal rejimin "uğurlu xidməti nəticəsində bunu çox sakit və adi qarşılayır".

Apreldə təxribatlarının qarşısı alındıqdan sonra iflasa uğrayan, qorxu, həyəcan içində olan Ermənistan rəhbərliyi bu cür təxribat xarakterli çıxışlar etməklə sanki Azərbaycanı növbəti dəfə qətiyyətli addımlar atmağa təhrik edir. Lakin bu çıxışların əsas səbəbi qonşu ölkədə mövcud olan acınacaqlı daxili vəziyyət və siyasi, sosial-ictimai gərginlikdir. Yaxınlaşmaqda olan parlament seçkiləri ərəfəsində bu gərginliyi azaltmağa cəhd göstərən, əhalini sakitləşdirməyə çalışan kriminal rejimin ən əsas məqsədi zorla, terrorla sahibləndiyi hakimiyyəti qoruyub saxlamaqdır. Buna nail olmaq üçün ən çirkin vasitələrdən bəhrələnəcəkləri, erməni xalqının fikrini yayındırmaq üçün belə məsuliyyətsiz çıxışlar edəcəkləri, cəbhədə vəziyyəti gərginləşdirmək üçün təxribatlar törədəcəkləri də hamıya bəllidir. Bunu ermənilər gözəl dərk edir.

Azərbaycan Ordusu aprel döyüşlərində istifadəsində olan silahların cüzi bir qismini tətbiq etdi. Düşmən başa düşməlidir ki, cəbhədə həyata keçirmək istədiyi hər təxribatın qarşısı əvvəllər olduğu kimi, yenə də qətiyyətlə alınacaq və bu zaman tətbiq edəcəyimiz müasir silahlar əvvəlkilərlə müqayisədə daha dağıdıcı olacaq, erməni ordusunun tamamilə darmadağın edilməsinə gətirib çıxaracaqdır.

Çıxışında M.Akopyanın qüvvələr balansından danışması da "bixəbərlikdəndir". Eyni zamanda daxili auditoriyaya hesablanan təbliğat zamanı Ermənistanda hansı yalanlardan istifadə edilməsi də artıq heç kimi təəccübləndirmir. Qüvvələr balansının hər sahədə Azərbaycanın xeyrinə olduğunu təkcə erməni tərəfi dərk etməyi bacara bilmir. Əgər Ermənistan hərbi rəhbərliyi bunu dərk edərsə, o zaman erməni xalqını böyük məhrumiyyətlərdən, gənclərini mənasız ölümlərdən xilas edəcəkdir.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**



*Qəhrəmanlarımız*

# Əbədiyyət zirvəsi

*İnsan həyatının müxtəlif anlarında qəflətən ağır sınaqlarla üzləşməli olur. Çətinlikləri güclü iradəsi ilə dəf etməyə çalışır, məqsədinə çatmaq üçün heç nədən çəkinmir. Ümidlə yaşayır, inamla nəfəs alır. Elə insan da var ki, özü də hiss etmədən həyatını boş-boşuna yaşayır. Günlər həftələrə, aylara, illərə çevrilir, ömür öz axarı ilə sakitcə başa çatır, bir müddətdən sonra unudulur, yaddaşlardan birdəfəlik silinir. Sonralar onları heç xatırlayıb yada salan da olmur. Elə insanlar da var ki, onlar yaşadığı qısa ömürdə böyük qəhrəmanlıq və igidlik göstərir. Özündən sonra şərəfli ad, fəxr olunası əməllər, dəyərli örnəklər qoyub gedir.*

1987-ci ilin soyuq fevral günlərində Gürcüstan Respublikasının Xobi rayonunun Çaladidi kəndində Rioni çayında ölümlə üz-üzə qalmış insanları xilas edərkən böyük hünər və qəhrəmanlıq göstərmiş 20 yaşlı Rahib Məmmədov belə bir ömür yaşadı...

...1987-ci ildə qəbul imtahanlarında sərbəst mövzu yazdım - Rahib Məmmədovun göstərdiyi qəhrəmanlıqdan. Bu barədə kifayət qədər məlumatım var idi. Elə o vaxtdan da Rahibin qəhrəmanlığı məndə xoş təəssüratlar oyatmış, yaddaşımda dərin iz salmışdı.

Sonralar xidmətdə olduğum vaxtlarda təsadüfən bir neçə dəfə Rahib Məmmədovla bağlı olan bəzi məqamlarla rastlaşdım. Bu məqamlardan məqalə hazırlamaq istəyirdim - mənəvi borc kimi.

## Vətənə Rahib kimi oğullar gərək

...1996-cı ilin martında Novruz bayramı ərəfəsində Ağdamda ezamiyyətdəydim. Gənclərin ilk respublika forumu yenicə başa çatmışdı. Həm bayramla, həm də forumla bağlı material hazırlamalıydım. Qatardan düşən kimi səngərlərə baş çəkib zabit və əsgərlərlə görüşdüm.

Hərbi hissənin məktəbdə yerləşən qərargahına şər qarışanda qayıtdım. Gecəni burada qaldım. Səhər lap ertədən təhsil ocağının həyətinə çıxanda meydanın ortasında büst gördüm. Yaxınlaşıb diqqətlə baxdım, adını oxuyan kimi bir vaxtlar onun haqqında oxuduqlarım yadıma düşdü. Bu, 1987-ci ildə Gürcüstanın Çaladidi kəndində təbii fəlakət zamanı insanların həyatını xilas edərkən böyük hünər göstərmiş Rahib Məmmədovun büstü idi.

Qəribə idi, ilk dəfə 1987-ci ildə qəbul imtahanı verəndə də Rahib Məmmədovun qəhrəmanlığı ilə üzləşmişdim. Üstündən 9 il keçəndən sonra cəbhə bölgəsinə ezamiyyətə gələndə də cəsur əsgər Rahib Məmmədovun büstü ilə qarşılaşdım. İnanılmaz bir təsadüf idi. Mən də hərbi xidmətdə olanda onun kimi zirehli texnika idarə etmişdim. Haradasa, talelərimizdə bir oxşarlıq var idi. Səhərin sübh çağında, Novruz bayramı ərəfəsində qəhrəmanın büstü ilə üz-üzəyəm. O əynində daş paltar geyinib, mən hərbi formadayam. Bu paltar ona da, mənə də çox doğmadı. Çünki Rahib güclü selin cənginə qalıb boğulan insanları xilas edəndə hərbi geyimdəydi. Adamları selin əlindən almağa çalışan igid azərbaycanlı əsgər özü güclü su axınına düşərək həlak olmuşdu, 20 yaşında əbədiyyət zirvəsinə ucalmışdı.

## Ömür yolunun igidlik anı

Rahib Məmmədov 1967-ci ildə Ağdam rayonunun Mahrızlı kəndində dünyaya göz açmışdı. Uşaqlığı, gəncliyi bu gözəl diyarda keçmişdi. Onun ömür yolu çox qısa oldu. Cəmi 20 il ömür sürdü, ləyaqətlə yaşadı, qəhrəmanlıq göstərdi - şərəflə öldü. Qəhrəmanlığı, igidliyi ilə ad qoyub yaddaşlarda ulduz kimi parlaq qaldı. Cəsarəti ilə adını tariximizin qəhrəmanlıq səhifələrinə böyük hərflərlə yazmağı bacardı.

…18 yaşına çatanda yaşıdları kimi günlərin birində Rahibə də hərbi komissarlıqdan çağırış vərəqi gəldi. Ordu sıralarına sevinə-sevinə getdi. Valideynləri, yaxınları onu təntənə ilə yola saldılar. Atası Gülmalı, anası Roza Rahibin keçmiş İttifaqın hansı şəhərinə düşəcəyini, onun məktubunun haradan gələcəyini intizarla gözləyirdilər. Günlərin birində narahatlığa son qoyuldu - Rahibdən məktub gəldi…

O, Gürcüstandakı hərbi hissələrin birində xidmət edirdi. Yazırdı ki, burada ona zirehli texnikaları idarə etməyi öyrədirlər.

## Cəsarət və hünər günü

İnsan nə qədər savadlı və uzaqgörən olsa da, bir neçə dəqiqədən sonra başına nələrin gələcəyini bilmir. Ömür yolları heç vaxt eyni axarla getmir, onun enişi-yoxuşu, düzü və döngələri var. Hərdən həyatımız dəniz kimi təlatümə gəlir, güclü dalğalar şahə qalxır. Çox keçmir ki, sakitləşir, şıltaq dalğalar asta-asta ləpələnib əvvəlki axarına düşür. Rahibin də həyatı belə oldu...

1987-ci il fevralın 1-i idi. Həmişəki günlərdə olduğu kimi, Rahib xidmətini davam etdirirdi. Saatın əqrəbləri gecə 5-i göstərirdi. Növbətçi əsgər və zabitlərdən başqa hərbi hissənin şəxsi heyəti şirin yuxu içindəydi. "Qalx!" komandasına hələ bir saat qalırdı. Amma saat 5-dən bir-iki dəqiqə keçər-keçməz şəxsi heyəti "həyəcan" çağırışı ilə ayağa qaldırdılar. Məlum oldu ki, yağan güclü qar və yağışdan sonra Rioni çayı məcrasını aşaraq Çaladidi kəndini ağuşuna alıb. Sakinlərin həyatı üçün təhlükə yaranıb.

Çox keçmədi ki, verilmiş əmri yerinə yetirən sürücü-mexaniklər parka toplaşdılar. Tabor komandiri Semyonov vəziyyət barədə onlara tələsik qısa məlumat verdikdən sonra sürücü-mexaniklərə hərəkət marşrutunu da dəqiq göstərdi: Poti şəhəri, Çaladidi kəndi.

Əsgərlər təbii fəlakət zonasına təyin olunmuş vaxtdan da tez çatdılar. Gördüklərindən dəhşətə gəldilər. Güclü yağıntıdan sonra məcrasına sığmayan Rioni çayı kəndin məhəllə və küçələrindən axıb keçirdi. Güclü sel bir neçə evi uçurmuşdu. İnsanlar fəlakətdən yaxa qurtarmaq üçün evlərin damına çıxmış, yaxınlıqdakı ağaclara dırmaşmışdılar. Əli hündür bir yerə çatmayanları sel aparırdı. Zirehli maşınlar bir-birinin ardınca iti axan sel sularını yarıb irəli gedirdi. Bacarıqlı sürücü-mexanik Rahib Məmmədov maşını məharətlə idarə edərək özünü evlərin damına çıxanlara çatdıra bildi. İlk gedişdə bir neçə adamı təhlükəli zonadan çıxartdı. Sel-suları bəzi yerlərdə iki-üç metrə qalxmışdı. Rahib zirehli texnika ilə məhəllələrlə hərəkət edərək sakinləri ölümün pəncəsindən alırdı. Bu cəsur azərbaycanlı gənc qısa vaxtda 28 nəfəri ölümdən xilas etdi...

Deyəsən, artıq kənddə adamların hamısı xilas edilmişdi. Sürücü-mexaniklər zirehli texnikaları təpənin ətəyində, təhlükəsiz bir yerdə saxlamışdılar. Kənd sakinlərindən yaşlı bir kişi onlara yaxınlaşıb həyəcanla dedi:

- Uşaqlar, çox sağ olun, yaxşı işlədiniz. Deyəsən, kənddə qalan var. Yuxarıdan səslər gəlir, darda qalanlar köməyə çağırır.

O biri əsgərlər tərpənincə Rahib zirehli texnikanın sükan arxasına keçərək mühərriki işə saldı. Maşının güclü uğultusu selin şırıltısına qarışıb eşidilməz oldu. Cəsur əsgər darda qalanları xilas etmək üçün yavaş-yavaş irəli getdi. Kənddə kimsə gözə dəymirdi. Ötən müddət ərzində sel bir az da güclənmişdi. Onun idarə etdiyi zirehli texnika qəflətən burulğana düşdü. Selin güclü dalğası bir göz qırpımında maşını aşıraraq körpünün dirəyinə çırpıb geri atdı. Nə qədər çətin olsa da, Rahib maşının sükanını buraxmadı. O həm özünü, həm də zirehli texnikanı xilas etməyə çalışırdı. Cəhdi boşa çıxdı. Maşın bir göz qırpımında arxası üstə çevrildi, mühərrik söndü. Sel onu qabağına qatıb xeyli irəli apardı. Texnikanın içərisindən səs-səmir gəlmirdi. 28 nəfər kənd sakinini xilas edən Rahibin özü qəhrəmancasına həlak olmuşdu. Onun ölümünə əsgər dostları, kənd sakinləri, komandirləri yanıb-yaxılırdı...

## Yaşasaydı, 50 yaşı olacaqdı

O vaxtlar mərkəzi qəzetlərdə Rahib Məmmədovun göstərdiyi qəhrəmanlıq geniş işıqlandırılırdı. Həm mərkəzi, həm də yerli televiziyalarda silsilə verilişlər gedirdi. Rahib Gülmalı oğlu Məmmədov ölümündən sonra keçmiş İttifaqın ən yüksək ordenlərindən biri olan "Qırmızı Ulduz" ordeninə layiq görüldü.

Bir neçə gündən sonra Ağdam rayonunun Mahrızlı kəndində Gülmalı kişinin həyətində yas çadırı quruldu. Qohumlar, yaxınlar Rahibin ölüm xəbərini eşidib kədər içində onlara üz tutdular. Gülmalı ata, Roza ana qəm dəryasına batmışdılar. O ağır günlərdə valideynlər təskinliyi yalnız onda tapırdılar ki, oğulları ölüm ayağında olan insanları xilas edərkən həlak olmuş, qəhrəmanlıq göstərmişdi.



*Gürcustanın Çaladidi kəndində də həmyerlimizə abidə qoyulub. Abidənin üzərində ingilis və gürcü dillərində həkk olunmuş mətndə deyilir:*
*"1987-ci ildə baş vermiş sel daşqınları zamanı onlarla insanı həyatı bahasına xilas etmiş azərbaycanlı əsgər Rahib Məmmədovun işıqlı xatirəsinə minnətdarlıq duyğusu ilə"*

Rahibin dəfn mərasimində minlərlə insan iştirak edirdi. İynə atsan yerə düşməzdi. Gürcüstandan da gələnlər çox idi. Yaxından-uzaqdan mərasimə qatlanlar acı göz yaşları içində onu Mahrızlı kəndinin qəbiristanlığında torpağa tapşırdılar...

## Məktəbdə muzey

2012-ci ilin yayı idi. Ağdamda ezamiyyətdə olanda yolumu Rahib Məmmədovun adını daşıyan məktəbdən saldım, pedaqoji kollektivlə, şagirdlərlə görüşdüm. Hərbi hissənin şəxsi heyəti buranı tərk etdiyindən, təhsil ocağı yenidən doğma şagirdlərini qoynuna almışdı. Dəhlizlər, sinif otaqları uşaqların səsi ilə dolmuşdu. Öyrəndim ki, məktəbdə Rahib Məmmədov adına muzey yaradılıb.

O günlərdə keçmiş İttifaqın hər tərəfindən qəhrəmanın valideynlərinin ünvanına onlarla, yüzlərlə minnətdarlıq məktubları gəlirdi. Soyuq fevral günlərində gürcülərin, rusların, özbəklərin, türkmənlərin, qazaxların,... təskinlik və iftixar dolu məktubları Ağdam rayonunun Mahrızlı kəndinə axışırdı. Bu məktublar minnətdarlıqla başlayır, xoş arzu və niyyətlə davam edir, təskinliklə başa çatırdı. Gülmalı ata, Roza ana o ağır günlərdə bu xoş sözlərdən, ümidverici məktub və teleqramlardan az da olsa təskinlik tapır, onları övladlarından ən qiymətli bir xatirə kimi saxlayırdılar.

O günlərdə Məmmədovlar ailəsinə gələn məktub və teleqramların ünvanları müxtəlif idi: Tomsk, Ulyanovsk, Fərqanə, Kişinyov, Sverdlovsk, Karaqanda, Riqa, Düşənbə - bir sözlə, bütün keçmiş İttifaqın hər yerindən, xüsusilə də qardaş Gürcüstandan. Müəlliflər də müxtəlif idi: evdar qadınlar, məktəblilər, fəhlələr, kolxozçular, alimlər, yazıçılar, mühəndislər,... Elə məktublar da var idi ki, onları 200-300 adam imzalamışdı. Məktublar ən çox Gürcüstandan gəlirdi. Rahibin qəhrəmanlığı Azərbaycan və gürcü xalqlarını bir-birinə daha da mehribanlaşdırmışdı.

## Rahibin ölümü ilə yaşıd ağaclar

İntiqam müəllim muzeyin tarixindən də qısaca söz açıb bildirdi ki, Rahib Məmmədov adına muzey 1990-cı ildə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yaradılıb. Muzeyin cəbhə bölgəsində fəaliyyət göstərməsi təqdirəlayiqdir. Buraya ilk dəfə ayaq basanlar həm Rahib Məmmədovun, həm də doğma Qarabağımız, eləcə də başqa bölgələrimiz uğrunda vuruşan oğulların şərəf dolu döyüş yolları ilə yaxından tanış olurlar.

Həyətə çıxdıq. Buradakı küknar ağaclarının üstünə vurulmuş kiçik lövhələr diqqətimdən yayınmadı. Orada yazılanları öyrənmək istədik. Məlum oldu ki, bu ağacları 1987-ci ildə Gürcüstanın Çaladidi kəndindən məktəbə gəlmiş Rahib Məmmədovun bir vaxtlar sel daşqınından xilas etdiyi 28 nəfər əkib. Lövhələrdə ağacları basdıranların ad-familiyaları və əkildiyi tarixlər qeyd olunub. Hiss etdik ki, bu ağaclar çox etibarlı qorunur. Bu da təbiidir. Çünki tarix üçün bir ağac da, bir daş da qiymətlidir. 30 il əvvəl basdırılmış küknar ağaclarının həm gövdələri xeyli irilib, həm də boyları yuxarı qalxıb. Dibinə kölgə salan bu ağaclar Rahibin ölümü ilə yaşıddır. Onlar yuxarı boy atdıqca sanki qəhrəmanın adını uca zirvələrə qaldırır, Aya, Günəşə, ulduzlara onun igidliyindən xəbər aparır.

Cəsur insan, qorxmaz əsgər Rahib Məmmədov haqqında qeydlərimi bu sözlərlə yekunlaşdırmaq istəyirəm. Nə qədər ki, torpaqlarımız erməni işğalçılarından azad edilməyib, oğullarımız nurlu və xoşbəxt sabahlarımız naminə Rahib Məmmədov cəsarətində olmalıdı...

**Vahid MƏHƏRRƏMOV**

Vətənpərvərlik

# Məqsədimiz, amalımız birdir

*Gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məqsəd ölkəmizin gələcək qurucularını xalqımızın ümummilli lideri Heydər Əliyevin ideyaları əsasında əsl vətəndaş kimi formalaşdırmaqdır.*

Polkovnik-leytenant Rusif Babayev söhbət zamanı bildirdi ki, işimiz təkcə gəncləri hərbi xidmətə yola salmaqla bitmir. "Onların ordu həyatına hazırlanması üçün təhsil ocaqları ilə birgə tədbirlər həyata keçirilir. Hərbi idman oyunlarının keçirilməsi ənənə halını alıb. Belə oyunlarda məktəblilər böyük həvəslə iştirak etməklə, ibtidai hərbi hazırlıq dərslərində əldə etdikləri bilikləri əyani şəkildə nümayiş etdirirlər. Böyük Vətən və Qarabağ müharibəsi iştirakçıları ilə keçirilən görüşlər, hərbi hissələrdə əsgərlərin ziyarəti yeniyetmə və gənclərin ordu həyatına hazırlanmasında böyük əhəmiyyət daşıyır."

Gənclərin hərbi xidmətə yolasalma mərasimlərində rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri, məktəblilər fəal iştirak edirlər. Yüzlərlə şəmkirli gənc Silahlı Qüvvələrimizdə Vətənə şərəflə xidmət edərək, vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirir. Onlarla gənc hazırda hərbi təhsil ocaqlarında zabit peşəsinə yiyələnir.

2016-cı il aprelin əvvəllərində düşmən təxribatının qarşısının alınmasında minlərlə gənc düşmənlə döyüşlərə hazır olduğunu bildirdi. Döyüşlər zamanı şəhid olanların qısa, lakin şərəfli ömür yolu gənclərimizə əsl örnəkdir.

Ordumuzda xidmətləri ni şərəflə başa vuran gənclərlə söhbətləşmək qərarına gəlirəm. Müxtəlif bölgələrdə xidmət etsələr də, ordu həyatında çox şey öyrəndiklərini, ən əsası isə etibarlı Vətən müdafiəçiləri kimi formalaşdıqlarını qətiyyətlə bildirdilər.

Tatlı Elsevər də xidmətini cəbhə bölgəsində başa vurub. Düşmən təxribatının qarşısının alınmasında iştirak etdiyini bildirən döyüşçü deyir:

- Düşmənin hücumlarının dəf edilməsində mən də yaxından iştirak etmişəm. Qısa müddət ərzində işğal altında olan torpaqlarımızın bir hissəsini azad etdik. Düşmənlər əsl həqiqəti başa düşdülər: Azərbaycan Ordusu işğal olunmuş torpaqlarını azad etməyə qadirdir. Qürur hissi keçirirəm ki, mən də aprel döyüşlərinin iştirakçısıyam. Ordu həyatından ayrılsaq da, hər zaman özümüzü Vətənimizin əsgəri hesab edirik.

Səbuhi Ələkbərli də xidmət etdiyi müddətdə intizamlı, fədakar əsgər kimi tanınıb. Düşmən təxribatının qarşısının alınmasında iştirak edib. İstənilən əmrə həmişə hazır olduğunu döyüşər zamanı bir daha təsdiqləyib. Səbuhi də silahdaşları kimi döyüşlərə həmişə hazır olduğunu bildirir:

"Xidmət müddətində əsl döyüşçü kimi formalaşmışıq. Təlim və məşqlər zamanı atıcı silahlardan məharətlə istifadə etməyi tam mənimsəmişik. Aprel döyüşləri bizim üçün böyük sınaq oldu. Əldə etdiyimiz qələbə döyüş hazırlığının, vətənpərvərlik hissinin göstəricisinə çevrildi. Mən və silahdaşlarım hər zaman torpaqlarımızı düşmənlərdən azad etməyə hazırıq."

Elşad Hüseynli də ordu həyatında mətinləşib. O deyir:

- Aprel döyüşlərində düşmənə sarsıdıcı zərbələr vurduq. Texnika, canlı qüvvə sarıdan ağır itkilərə məruz qalan düşməni tutduqları mövqelərdən xeyli uzaqlaşdırmaqla torpaqlarımızın bir hissəsini azad etdik. Bu böyük qələbədən sonra Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev bildirdi ki, düşmən qüvvələr aprel hadisələrindən düzgün nəticə çıxarmasalar, daha böyük itkilərə məruz qalacaqlar. "Silahlı Qüvvələrimizin zəfərləri davamlı olacaq, bütün işğal olunmuş torpaqlarımızda Azərbaycan bayrağı dalğalanacaqdır". Xidmət müddətimiz başa çatsa da, Vətən uğrunda Ali Baş Komandanın əmrini yerinə yetirməyə həmişə hazırıq.

Müqəddəs borcunu yerinə yetirən gənclərlə hərbi xidmətə yola düşənlərin məramı, məqsədi eynidir: işğal altında olan torpaqlarımızı düşməndən təmizləyərək ölkəmizin ərazi bütövlüyünü təmin etməkdir.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

Nümunəvi xidmət

# Peşəkarlıq hər sahədə vacibdir

*Növbəti ezamiyyət... Bu yolçuluqda da bizi maraqlı və həyəcanlı görüşlər gözləyir. İlk rastlaşdığımız hərbçilərdən biri də Beyləqan rayonunda anadan olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Natiq Tanrıvediyevdir. Tanışlıq zamanı öyrənirik ki, ordu həyatında ən vacib peşələrdən biri sayılan sürücülük peşəsi ilə məşğul olur. Hər yerdə olduğu kimi, ordu mühitində də avtomobilləri peşəkar səviyyədə idarə etməyi bacaran sürücülərə ehtiyac var. Hazırda hərbi hissələrimizdə yüksək peşəkarlığa malik olan, hərbi maşınları mükəmməl idarə etməyi bacaran hərbi qulluqçularımız çoxdur. Natiq də belələrindəndir.*



Əsgər kimi xidmət etdiyi illəri də yada salan həmsöhbətim Sülhməramlı Qüvvələr Taborunda Kosovoda xidmət etdiyi günlərdən fərəhlə danışır. "1999-2001-ci illərdə Sülhməramlı Qüvvələr Taborunda xidmət etmişəm. Həmin illərdə Azərbaycanı Kosovoda ilk təmsil edənlər sırasında oldum. Dövlətimizin bayrağını NATO dövlətlərinin bayraqları sırasında görmək qürurverici idi. Bölməmiz Türkiyə taborunun tərkibində fəaliyyət göstərirdi."

Yolboyu söhbət əsnasında həmsöhbətim döyüş hazırlığına görə bizim hərbçilərin digər dövlətlərin hərbçilərindən yaxşı mənada seçildiyini bildirdi: "Hərbi qulluqçularımız döyüş hazırlığına görə fərqləndiyindən bizə xüsusi hörmət var idi."

- Yerli əhalinin bizə münasibəti çox yaxşı idi və tarixi bayramlarımızı qeyd edəndə bizə həsəd aparırdılar, - deyə Natiq sözünə davam edir. - Kosovoda bir çox tarixi bayramlarımızı - Ramazan bayramını, Novruz bayramını, Qurban bayramını özünəməxsus təntənə ilə qeyd etdik. Ən əsası, Azərbaycandan çox-çox uzaqda millətimizə xas olan adət-ənənələri qoruyurduq.

Ön xətdəki bölmələrə gedəndə Natiq Tanrıverdiyevin ustalığı yolun narahatlığını bizə hiss etdirmədi. Asanlıqla bizi mənzil başına çatdırması hərbi qulluqçunun peşəkarlığından xəbər verirdi.

Hərbi hissədə də sürücünün fəaliyyətini yüksək qiymətləndirib onun təcrübəli olduğunu qeyd etdilər. Belə təcrübəli hərbi qulluqçular Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinə öz töhfələrini verirlər.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xəbərlər:

## hadisələr, faktlar

### NASA dünyanın ən dəqiq fotoşəkillərini yayıb



NASA-nın yeni nəsil dünya müşahidə peyki ("GOES-16") ilk fotoşəkillərini göndərib.

"GOES-16" peyki meteoroloqların qasırğa proseslərini daha tez müəyyən etməsinə yardımçı olacaq. Yüksək dəqiqliyə malik fotolar sayəsində toz qatı ilə buludlar da ayırd edilə biləcək.

Qeyd edək ki, dünyadakı atmosfer hadisələrinin ətraflı təhlil olunması üçün "GOES-16" layihəsi çərçivəsində orbitə daha dörd peyk göndəriləcək.

### Kvebek məscidində baş verən atışma nəticəsində həlak olanların sayı 6 nəfərə çatıb



Kanadanın Kvebek şəhərində yerləşən məsciddə baş verən atışma nəticəsində həyatını itirənlərin sayı 6 nəfərə çatıb, 8 nəfər isə yaralanıb.

Bu barədə yerli polisin nümayəndəsi Kristin Kulomb bildirib.

Kanadanın Baş naziri Castin Trüdo və Kvebek əyalətinin Baş naziri hadisəni terror aktı adlandırıblar. Şahidlərin sözlərinə görə, insident zamanı məsciddə 40 nəfərə qədər adam olub. Hücum edən 2 nəfərin həbs olunduğu bildirilir.

### Dağıstanda xüsusi əməliyyat



Dağıstanın iki kəndində antiterror əməliyyatı rejimi tətbiq edilib, silahlıların axtarışı aparılır.

Bu barədə respublikanın operativ qərargahının nümayəndəsi bildirib.

Hazırda yaraqlıların və onların havadarlarının zərərsizləşdirilməsi üzrə əməliyyat-axtarış tədbirləri həyata keçirilir. Antiterror əməliyyatı rejimi ictimai asayişin mühafizəsinin gücləndirilməsi məqsədilə tətbiq edilib.

### Tacikistanda qar uçqunları nəticəsində yeddi nəfər həlak olub



Son iki sutka ərzində Tacikistanın dağlıq ərazilərində yağan aramsız qar bir sıra ciddi problemlər yaradıb.

Tacikistanın Fövqəlade Hallar Nazirliyinin verdiyi məlumata görə, baş vermiş qar uçqunları nəticəsində yeddi nəfər həlak olub.

Düşənbə-Xocənd, Xaroq-Murqab magistral yolları bağlanıb. Yollarda olan 150 minik və 50 yük maşını təhlükəsiz yerlərə aparılıb.

Düşənbə-Xaroq-Murqab (Dağ Bədəxşan Muxtar vilayəti) yolunda isə 200 maşın hələ də uçqunların mühasirəsindədir.

Təbii fəlakətin qarşısının alınması ilə bağlı qərargah yaradılıb, insanların xilas edilməsi istiqamətində iş aparılır.

### Cənubi Çin dənizində batan Malayziya gəmisindən 27 nəfər xilas edilib



Cənubi Çin dənizində Borneo adası sahilləri yaxınlığında Malayziya gəmisi batıb. Gəminin göyərtəsində 28 çinli turist və 3 heyət üzvü olub.

Gəmi adanın şimalında tapılıb. Axtarışlar zamanı 27 nəfər xilas edilib. Daha 4 nəfərin axtarışları davam edir.

Qeyd edək ki, Malayziya gəmisi Kota Kinabal şəhərindən Menqalum adasına hərəkət edirdi.

**AZƏRTAC-ın materialları əsasında**

# Şəhidliyə ehtiram

*Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseyin kursantları həm Şəhidlər xiyabanını, həm də türk əsgəri şəhidliyi abidəsini ziyarət etdilər. Əvvəlcə şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad olundu. Sonra kursantlar türk şəhidliyi abidəsinin önünə qərənfillər qoydular.*



Kursantlar türk əsgərlərinin ölkəmizdəki qəhrəmanlığından söz açdılar. İlk həmsöhbətim olan kursant Şöhrət Quliyev dedi ki, 1918-ci ildə ermənilər ölkəmizin müxtəlif bölgələrində azərbaycanlılara qarşı soyqırımı həyata keçirirdilər. Qan su yerinə axırdı. Quba, Şamaxı, Bakı və başqa bölgələrdə gərgin vəziyyət yaranmışdı. Təpədən-dırnağadək silahlanmış ermənilər kəndlərə hücum edir, evləri yandırır, dinc insanları amansızlıqla qətlə yetirirdilər. Günlər keçdikcə qanlı hadisələrin miqyası genişlənirdi. Bax, belə gərgin bir vaxtda türk əsgərləri köməyə yetişib xalqımızı erməni vandallardan xilas etdilər. Təəssüflər olsun ki, döyüşlər zamanı türk əsgərləri də şəhid oldular. Bu abidə onların xatirəsinə hörmət əlaməti kimi ucaldılıb. Xiyabana gələndə həmişə əlimdə gül dəstəsi abidəni ziyarət edir, xatirələri qarşısında baş əyirəm.

- Əgər 1918-ci ildə türk əsgərləri köməyə gəlməsəydilər, ermənilərin başımıza gətirdikləri faciənin miqyası, yəqin ki, daha da böyük olacaqdı, - deyə kursant Murad Rəhimov söhbətimizə qoşuldu. - Dinc insanlara divan tutan erməni qüvvələri türk əsgərlərinin gücü qarşısında dayana bilməyib geri çəkildilər. Bu bölgələrdə yaşayan insanların ölüm təhlükəsi sovuşdu. Xalqımız xilaskarlarını heç vaxt unutmur, yaddan çıxarmır. Türk əsgələrinin şərəfinə ucaldılan bu möhtəşəm abidə xalqımızın ziyarətgahına çevrilib.

Daha sonra kursantlardan İdris Məmmədov, Cəlil Rüstəmov, Telman Bayramov və başqaları ilə də söhbət etdim. Onlar da türk əsgərlərinin 1918-ci ildə soyqırımı törədən erməni qüvvələrinə qarşı igidliklərindən söz açdılar.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Hərbi ənənələr, yeniliklər



## Orbiter pilotsuz uçuş aparatları

"Aeronautics Ltd" şirkəti İsrailin pilotsuz aviasiya sistemlərinin istehsalı üzrə aparıcı şirkətlərindən biridir. Burada daha çox istehsal olunan "Orbiter" pilotsuz uçuş aparatlarıdır. Onlar üç modeldə təmsil olunur: itələyici elektrik mühərrikli Orbiter 1, Orbiter 2 və Orbiter 3. Aparatların hər üçü sınaqlardan uğurla keçərək silahlanmaya qəbul edilib. Orbiterlər son dərəcə az optik, istilik, akustik və radiolokasiya sistemləri tərəfindən gözəgörünməz olur və aşkar edilmirlər. Mini pilotsuz uçan Orbiter aparatı ölkənin daxili təhlükəsizliyini təmin etmək, o cümlədən müşahidə, kəşfiyyat aparmaq, artilleriya dayağı durmaq və digər xüsusi əməliyyatlar aparmaq üçün nəzərdə tutulub. Bundan başqa Orbiterdən hərbi dəniz gəmilərinin göyərtəsinə enmək üçün də istifadə edilir. Bu pilotsuz uçan aparatlar iki döyüşçü tərəfindən daşına, yığıla, buraxıla və idarə oluna bilər. Orbiterin bütün sistemlərini çantada yerləşdirmək və gəzdirmək olar. Onun quraşdırılması üçün əlavə şəxsə ehtiyac olmur. Orbiterin yığılmasına 10 dəqiqədən çox vaxt sərf edilmir. Bu uçuş aparatlarından müxtəlif hava şəraitində istifadə edilə bilər.

Orbiter kompozit materialdan hazırlanıb. Bu aparatın əla aerodinamik xüsusiyyətlərə malik olması, lazımi faydalı yüklərin daşınmasına imkan yaradır. Onun yerüstü idarəetmə sistemi özündə kompakt



bloku təsvir edir. Hansı ki, onun üstünə mühafizə jileti geydirmək olar. Aparatın əsas üstünlüklərindən biri də odur ki, hətta təcrübəsiz operator da Orbiterin uçuşunu uğurla həyata keçirə və kəşfiyyat üzrə məlumatları toplaya bilər. Alınan bütün məlumatlar diskə köçürülür.

Tapşırığın yerinə yetirilməsindən sonra Orbiter aparatı operatorun komandası ilə qeyd olunmuş nöqtəyə qayıdır, öz paraşütünü açır və doldurulan yastığına enir. Onun batareyası dəyişildikdən bir neçə dəqiqə sonra növbəti tapşırığı yerinə yetirmək üçün uçuşa yollanır.

Orbiter 2-nin qanadlarının açılması üç metrə qədərdir. Aparat uçan qanad sxemi üzrə hazırlanıb və səssiz itələyici vintli mühərriklə təchiz olunub, bu da ona hava ərazisində 30-80 kilometrlik məsafədə dörd saat müddətində və 5500 metrlik yüksəklikdə qalmağa imkan verir. Tapşırıqlardan asılı olaraq gündüz videokamera, multisensor faydalı yüklə də təchiz oluna bilər. Bu da ona geniş şəkildə müşahidə aparmaq, hədəfləri avtomatik müşayiət etmək, müəyyən nöqtədə koordinatları müəyyən etmək və s. imkan verir.

Orbiter 3 də katapult vasitəsi ilə uçuşu həyata keçirir, paraşütlə və doldurma yastığın köməyi ilə enməni həyata keçirir. 25 kiloqramlıq elektrik naqilli aparat müşahidə, kəşfiyyat aparmağa qadirdir. Orbiter 3 geniş spektrli avadanlığı, o cümlədən ən müasir multisensor stabilizatorlu stansiyanı daşıya bilər. Stansiyanın tərkibinə yüksək keyfiyyətli soyuducu teplovizor, lazer hədəfgöstərici, SSD kamerası daxildir.

Orbiterlər yüksək keyfiyyətli avionika ilə təchiz edilib. Milli təhlükəsizlik sahəsində isə onlardan terror əməliyyatlarına qarşı, strateji obyektlərin qorunmasında, təbii fəlakətlərin aradan qaldırılmasında və axtarış əməliyyatlarında istifadə edilir.

Yüngül avtomobillərdə daşınandır. Əllə, katarpultla və ya dartınan qurğu ilə buraxılır. Daşınan kompüterdən asanlıqla idarə olunur. Gecə-gündüz istifadə edilir. Aparatların sürəti saatda 130 kilometr təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Boks üzrə Azərbaycan çempionatına yekun vurulub



Azərbaycan Boks Mərkəzində kişi və qadın boksçular arasında ölkə çempionatına yekun vurulub.

Yarışda kişilər 10, qadınlar isə 4 çəki dərəcəsində birincilik uğrunda mübarizə aparıblar.

Kişilərin yarışında Araz İmaməliyev (49 kq), Məsud Yusifzadə (52 kq), Tayfur Əliyev (56 kq), Cavid Çələbiyev (60 kq), İman Əhmədli (64 kq), Roman Zakirov (69 kq), Kamran Şahsuvarlı (75 kq), Eldar Quliyev (81 kq), Teymur Məmmədov (91 kq) və Ağalar Sadiqzadə (91 kq-dan yuxarı) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Qadınların mübarizəsində Dinarə Fətəliyeva (48 kq), Anaxanım Ağayeva (51 kq), Məhsəti Həmzəyeva (57 kq) və Məryəm Cəbrayılova (64 kq) qızıl medal qazanıblar.

## Azərbaycan cüdoçuları beynəlxalq turnirdə 13 medal qazanıblar



Azərbaycan cüdoçuları İtaliyanın Liqnano şəhərində ənənəvi "Alpe Adrea" beynəlxalq turnirində 5 qızıl, 4 gümüş və 4 bürünc medal qazanıblar.

22-ci dəfə baş tutan festivalda Avropanın müxtəlif ölkələrindən 1046 gənc cüdoçu mübarizə aparıb. Azərbaycan komandasının heyətində Hacı Musayev (55kq), Kəramət Hüseynov (60 kq), İsmayıl İbrahimov (66 kq), Hasil Cəfərov (73 kq) və Aslan Mirzəyev (90 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar. Natiq Qurbanlı (60 kq), Naim Hüseynov (81 kq), Azər Yaqubov (90 kq) və Ayxan Cəfərov (+100 kq) gümüş, Tofiq Məmmədov (60 kq), Murad Heydərli (60 kq), Vüsal Cəmilzadə (73 kq) və Samir Ağayev (81 kq) isə bürünc medala sahib olublar.

## Azərbaycan karateçisi Parisdə beynəlxalq turnirin gümüş medalını qazanıb



Milli komandamızın favoritlərindən İrina Zaretska (68 kq) Parisdə karate üzrə 1-ci kateqoriyalı Premyer Liqa yarışında gümüş medal qazanıb. Niyazi Əliyev (67 kq) isə bürünc medal uğrunda son təsəllivericі görüşdə qələbəni əldən verib.

Dünya Karate Federasiyasının (WKF) nüfuzlu turnirlər seriyasından olan yarışda milli komandamızın bir neçə üzvü iştirak edib. Onlardan Roman Heydərov (kata) səhhətində yaranan problemlə əlaqədar, Sərxan Quluzadə (84 kq-dan yuxarı) isə zədə üzündən mübarizəni davam etdirə bilməyib.

Azərbaycan Milli Karate Federasiyasının prezidenti və WKF-nin Texniki Komitəsinin üzvü Yaşar Beşirovun rəhbərliyi ilə Fransaya yollanan heyətdə beynəlxalq hakimlər Yusif Məmmədov və Anar Allahverdiyev turniri idarə edən hakimlər arasında olublar.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Şəfiyeva Şəbnəm Faiq qızına 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Nəzərova Natəvan Mükafat qızına 2015-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 36
Nüsxə 4650